<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>HIST 278, Qafqaz Xalqları Tarixi, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Tarix və Arxeologiya Departamenti</td></tr>
<tr><td>Proqram<br>(bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/2026-ci tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris<br>edən müəllim (lər)</td><td>Dr. Odər Əlizadə Elşən oğlu</td></tr>
<tr><td>E-mail:</td><td>oder.alizade@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td></td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Müəllimin təyin etdiyi vaxtda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">Qafqaz Xalqları Tarixi</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü<br>(məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və<br>əlavə ədəbiyyat</td><td colspan="2">Əsas ədəbiyyat və dərsliklər:<br>1. Qafqaz Tarixi, Qabil Əliyev, I hissə (Ən qədim çağlardan XVIII əsrin sonunadək), (Ali məktəblər üçün dərslik), Bakı, Elm, 2009.<br>2. Qafqaz Xalqlarının Tarixinin Mənbəşünaslığı, Şəlalə Məmmədov, Şəhla Məmmədli, Bakı, 2017.<br>3. Qafqaz Tarixi, Rafiq Qurbanov. (Ali məktəblər üçün dərslik), Bakı, 2008.<br>4. Rusya'nın Azerbaycan Siyaseti (1801-1813), Telman Nusretoğlu, İstanbul, 2010.<br>5. Dünden Bugüne Kafkasya, Muhammet Yıldız, İstanbul, 2006.<br>6. Tarihte Kafkasya, General İsmail Berkok, İstanbul, 1958.<br><br>Əlavə ədəbiyyatlar:<br>7. Alizade, O. Hunların Dünyası - Armenia Müverrihlerinin Anlatımında. Kabalcı Yayınları, İstanbul, 2025.<br>8. Алиева, С. И. Взаимоотношения Азербайджана и народов Северного Кавказа (XIX - начало XX вв.). Баку, 2017.<br>9. Ахундова, Н. Ч., Гусейнзаде Р. А. Кавказ и великие тюркские империи, Баку. 2012.<br>10. Golden, P. B. Hazar Çalışmaları, Selenege Yayınları, İstanbul, 2019.<br>11. Очерки Истории народов Северного Кавказа с древнейших времен до XVIII век. М., 1988.<br>12. Yaqublu, N. Qafqaz İslam Ordusu Azərbaycanda, Bakı, 2014.<br>13. Гусейнова, И.М. История народов Кавказа, Баку, 2006.<br>14. Марковин, В.И. Мунчаев Р.М. Северный Кавказ, М., 2003.<br>15. Мамедов К.А. Этнография народов Кавказа, Баку, 2013.<br>16. Olderogge, D. A. Ermeni-Etiyopya İlişkileri Tarihinden (Maştots Yazısı), Çev., Alizade. O, Ege Üniversitesi Yayınları, 2022.</td></tr>
</table>

| | |
|---|---|
| | 17. 18. Alizade, O. Kafkas Albania'sı Yazılı Anıtlarında Türk Tamgaları. Genel Türk Tarihi Araştırmaları Dergisi, 2025. |
| **Kursun təsviri** | Bu kurs Qafqaz regionunda yaşayan xalqların tarixi inkişaf mərhələlərini qədim dövrlərdən yeni və müasir dövrədək elmi-nəzəri əsaslarla öyrənməyə həsr olunmuşdur. Fənn çərçivəsində Qafqazın etnik tərkibi, siyasi qurumları, sosial-iqtisadi münasibətləri, mədəniyyət və inanclar sistemi, eləcə də regionun böyük imperiyalar və qonşu sivilizasiyalarla qarşılıqlı əlaqələri təhlil edilir. Kursda Qafqaz xalqlarının formalaşması, dövlətçilik ənənələri, müharibələr və diplomatik münasibətlər, miqrasiya prosesləri və mədəni irs məsələləri tarixi mənbələr və müasir tədqiqatlar əsasında sistemli şəkildə araşdırılır.<br>Fənnin tədrisi tələbələrdə Qafqaz tarixinə dair ümumi və müqayisəli baxış formalaşdırmağı, tarixi hadisələri xronoloji ardıcıllıqla və səbəb-nəticə əlaqələri kontekstində dəyərləndirməyi, həmçinin regionun tarixi-mədəni xüsusiyyətlərini elmi tənqid və analitik düşüncə prizmasından anlamağı məqsəd qoyur. |
| **Kursun məqsədləri** | Bu kursun əsas məqsədi tələbələrə Qafqaz xalqlarının tarixi inkişaf yolunu qədim dövrlərdən müasir mərhələyədək elmi-nəzəri və metodoloji əsaslarla sistemli şəkildə mənimsətməkdir. Kurs aşağıdakı məqsədləri həyata keçirməyə yönəlmişdir:<br>1. Tələbələrdə Qafqaz regionunun etnik, siyasi, sosial-iqtisadi və mədəni tarixinin əsas mərhələləri haqqında fundamental biliklər formalaşdırmaq.<br>2. Qafqaz xalqlarının təşəkkülü, dövlətçilik ənənələri və tarixi proseslərdə rolu barədə elmi baxış və müqayisəli təhlil bacarığı qazandırmaq.<br>3. Tarixi hadisə və proseslərin səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək və onları xronoloji ardıcıllıqla şərh etmək vərdişlərini inkişaf etdirmək.<br>4. Tarixi mənbələr və elmi ədəbiyyatla işləmək, faktları tənqidi şəkildə qiymətləndirmək və analitik düşünmə qabiliyyətini gücləndirmək.<br>5. Qafqazın regional və beynəlxalq münasibətlər sistemində tutduğu yeri anlamağa, regionun tarixi-mədəni irsinin qorunması və öyrənilməsinin əhəmiyyətini dərk etməyə yönəlik elmi dünyagörüş formalaşdırmaq.<br>6. Tələbələrin müstəqil tədqiqat aparmaq, mövzu üzrə müzakirələrdə fəal iştirak etmək və elmi üslubda yazılı və şifahi təqdimat bacarıqlarını inkişaf etdirmək. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Bu kursu uğurla başa vuran tələbələr:<br>1. Qafqaz xalqlarının tarixi inkişaf mərhələlərini qədim dövrlərdən müasir dövrədək xronoloji ardıcıllıqla izah edə biləcəklər.<br>2. Regionun etnik tərkibi, siyasi qurumları, sosial-iqtisadi münasibətləri və mədəni irsi haqqında əsas anlayış və terminləri mənimsəyəcəklər.<br>3. Qafqaz tarixində baş vermiş mühüm hadisə və prosesləri səbəb-nəticə əlaqələri kontekstində təhlil etmək bacarığı qazanacaqlar.<br>4. Tarixi mənbələr və elmi ədəbiyyatla işləmək, məlumatları tənqidi qiymətləndirmək və elmi arqumentlər formalaşdırmaq qabiliyyətinə yiyələnəcəklər.<br>5. Qafqaz xalqlarının tarixinin ümumdünya tarixi prosesləri ilə qarşılıqlı əlaqəsini müəyyənləşdirə və müqayisəli təhlil apara biləcəklər.<br>6. Elmi müzakirələrdə iştirak etmək, mövzu üzrə yazılı tapşırıqlar və təqdimatlar hazırlamaq üçün zəruri akademik bacarıqlar əldə edəcəklər. |

<table>
<tr><td></td><td colspan="3">7. Tarixi bilikləri müasir elmi yanaşmalar əsasında şərh etmək və regionun tarixi-mədəni irsinin əhəmiyyətini dərk etmək səviyyəsinə çatacaqlar.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Məşğələ</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>x</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Yoxlama (quiz)</td><td>Aralıq və Final imtahanı öncəsi</td><td>5 + 5</td></tr>
<tr><td>Tapşırıq (Mətn təhlili)</td><td>Semestr boyu</td><td>10</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr boyu</td><td>5</td></tr>
<tr><td>Esse</td><td>Final imtahanından öncə</td><td>5</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun</td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Davamiyyət<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br><br>Dərsə gecikmələr və ya digər dərs pozuntuları<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Dərsə 10 dəqiqə gecikən tələbəyə qayıb yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır.<br><br>Yoxlama işi<br>Yoxlama işi tələbələrin mövzu üzrə bilik və analitik hazırlıq səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə yazılı formada keçirilir. Sənədlə təsdiq edilən üzrlü səbəblərə (sağlamlıqla bağlı arayış, rəsmi icazə sənədi və s.) görə yoxlama işində iştirak edə bilməyən tələbələrə növbəti həftə ərzində yoxlama işini yazmaq imkanı yaradılır. Bu halda tələbə üzrlü səbəbi təsdiq edən müvafiq sənədləri müəllimə təqdim etməlidir. Yoxlama işi zamanı tələbələrin müvafiq mövzular üzrə nəzəri bilikləri, tarixi prosesləri anlama səviyyəsi və yazılı şəkildə elmi fikir ifadə etmə bacarığı qiymətləndirilir.<br><br>Esse<br>Seçilmiş mövzu üzrə tələbələr yazılı esse hazırlayacaqlar. Esse tələbənin mövzuya dair apardığı müzakirəni, şəxsi düşüncələrini və analitik təhlilini əks etdirməlidir. Esse mətnində yalnız faktların sadalanması deyil, tələbənin mövzuya münasibəti, müstəqil düşünmə qabiliyyəti və tənqidi yanaşması əsas meyar kimi qiymətləndiriləcəkdir.<br>Müzakirə və təhlil elementi essenin əsas məzmununu təşkil etməlidir.<br><br>Tapşırıq</td></tr>
</table>

Bu tapşırıq çərçivəsində tələbələr Qafqaz Xalqları Tarixinin müvafiq dövrü üzrə seçilmiş elmi məqalələri, imzalanmış beynəlxalq müqavilə mətnlərini, rəsmi qərar və sənədləri şifahi formada təhlil edəcəklər. Təhlil zamanı tələbələr təqdim olunan mətnlərin məzmununu elmi metodologiya əsasında şərh etməli, tarixi hadisə və proseslərin səbəb-nəticə əlaqələrini müəyyənləşdirməli, sənədlərin ictimai-siyasi və hüquqi əhəmiyyətini izah etməlidirlər. Şifahi müzakirə prosesində əsas diqqət tarixi mənbələrin obyektiv qiymətləndirilməsinə, müxtəlif elmi yanaşmaların müqayisəli şəkildə təqdiminə və mövzu üzrə əsaslandırılmış elmi mövqenin formalaşdırılmasına yönəldilir. Tapşırıq məşğələləri zamanı şifahi təqdimat və müzakirə formatında həyata keçirilir və tələbələrin elmi terminologiyadan düzgün istifadə etməsi, mənbələrə əsaslanan arqumentasiya aparması tələb olunur.

**İmtahanlar**
Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.

**İmtahan qaydalarının pozuntuları**
Aralıq və yekun imtahanları işində tələbə tərəfindən və bir-birindən köçürmə halları qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.

**Fənni bitirmək qaydası**
Universitənin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**Tələbələrin davranış qaydaları**
Dərs zamanı dərs prosesini pozmaq və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır.

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | Mövzuya giriş. Qafqaz adı. Qafqazın fiziki coğrafiyası və etnik kompozisiyasının formalaşması. Qafqaz tarixinin öyrənilməsində əsas qaynaqlar. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. ss. 3-20; 2. ss. 211-240. |
| 2. | | Qafqaz xalqlarının inanc dünyası: Paqanizim, Zərdüştlük, Xristiyanlıq və Tanrıçılıq. Qafqaz xalqlarının yazı mədəniyyəti. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. ss. 197-206; 17, 18. |
| 3. | | Erkən orta əsrlərdə Qafqazda baş verən siyasi proseslər. Kimmer, İskit və Saklardan erkən Orta əsrlərə Qafqazda Türk hakimiyyəti: Hunlar, Sabirlər, Bulqarlar, Xəzər Xaqanlığı və Göy Türk Xaqanlığı. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. ss. 81-89, 191-197.; 11. ss. 37-64. |
| 4. | | Qafqazda Türk-İslam dövlətləri dövrü: Çar Rusiyasının işğalına qədər. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: |

| | | | |
|---|---|---|---|
| | | | 1. ss. 234-319. |
| 5. | | Osmanlının Qafqaz siyasəti. XVIII əsrin sonları-XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsi. Gürcüstanın Rusiyaya birləşməsi. Kürəkçay, Gülüstan və Türkmənçay anlaşmaları. Qafqazda Erməni dövləti projesi. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. ss. 327-393. 3. ss. 225-251 |
| 6. | | Rus Çarlıq rejiminin Qafqazda həyata keçirməyə çalışdığı müstəmləkəçilik siyasəti. 1860-cı ildə qurulan Qafqazda Pravoslav Xristiyanlığını bərpa cəmiyyəti və Çarlıq rejiminin Qafqazın etno-demoqrafik xəritəsinin dəyişdirilməsinə yönəlmiş fəaliyyətləri. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 3. ss. 319-367. |
| 7. | | Qafqazda Rus müstəmləkəçiliyinə qarşı mübarizə və Müridizm hərəkatı. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 3. ss. 278-298. |
| | | **Aralıq imtahanı** | |
| 8. | | XX əsrin əvvəllərində Qafqazda ictimai-siyasi vəziyyət (1900-1918-cü illər). Erməni-Türk davası. Müsəlman Xeyriyyə Cəmiyyətlərinin Balkan və Birinci dünya müharibələri illərində Anadoluya qardaş yardımları. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 3. 375-387. |
| 9. | | Qafqaz Birinci Dünya müharibəsi illərində. Region uğrunda şiddətlənən geopolitik mübarizə. Almaniya , İngiltərə və Rusiyanın Qafqaz siyasəti. Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 3. 398-423. 13. ss. 5-33. |
| 10. | | Qafqaz xalqları ilk müstəqillik dönəmində (1918-1921-ci illər). Gürcüstan və Ermənistanın müstəqilliklərinin elan edilməsi və Osmanlıyla münasibətləri. Batum konfransı.<br>Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik üçün çətin mübarizəsi. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 3. ss. 423-441. |
| 11. | | Bolşevik Rus işğalından İkinci Dünya müharibəsinə Qafqazda vəziyyət. Repressiyalar, sürgünlər. Azərbaycan milli məfkurəsi və müstəqillik fikrinin muhacirətdə yaşadılması. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 3. ss. 441-451 |
| 12. | | Qafqazda yaşayan Türk soylu xalqların hazırkı durumu. Noqay, Qaraçay-Balkar, Qumık, Qarapapaq, Türkmən və Axıska Türklərinin problemlərinə dair. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 5. ss. 70-107. |
| 13. | | Qafqazın müsəlman xalqları: Abazalar, Lazlar, Ləzgilər, Çərkəzlər, Çeçenlər, Kabartaylar, Laklar, Tabasaranlar, Talışlar, Tatlar, Osetlər, İnguşlar, Avarlar və digərləri. | 5. ss. 37-70.; 6. ss. 143-146. |

| | | | |
|---|---|---|---|
| 14. | | Qafqaz xalqlarının milli kimlik axtarışları. Cənubi Qafqaz respublikalarının müstəqillik əldə etmələri (1980-ci illərin sonu 1990-cı illərin əvvəli). | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 3. ss. 461-568. |
| 15. | | Sovet rejiminin dağılmasından sonra Cənubi Qafqazda meydana gələn  etnik münaqişələr və hazırkı vəziyyətin təhlili. Yekun dəyərləndirmə. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-6. |
| | | **Final imtahanı** | |